Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 156 (1764) 18 avqust 2018-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# AZƏRBAYCANIN QADIN AŞIQLARI

(əvvəli ötən sayımızda)

**Azərbaycanda XX əsrdə öz müasirlərindən peşəkarlığı və yaradıcılığı ilə seçilən qadın aşıqlarından biri olan Aşıq Nabat (Nabat Paşa qızı Cavadova) 1914-cü ildə Şərur rayonunun Parçı kəndində yoxsul kəndli ailəsində anadan olub. O, ata-anasını erkən itirib. Nabat çox gözəl olub, uca boyu, gözəl çöhrəsi və üstəlik də məlahətli səsi ilə çoxlarının diqqətini çəkib. Onu sevənlər çox olub. Nabat onu sevən gənc bir oğlanla ailə qurub xoşbəxt həyat yaşama-**



**ğa başlayıb. Amma bu xoşbəxtlik uzun sürməyib. Onun Azərbaycanda yeni qurulmuş Sovet hökumətində polis orqanında xidmət edən həyat yoldaşı Sovet sisteminə narazı olanlar tərəfindən öldürüldükdən sonra Nabatın firavan həyatı da pozulub. Bundan sonra musiqiyə meyil salıb.**

Amma qohumları onun toylara getməsinə razılıq verməyinə görə, 1934-cü ildə Azərbaycannın musiqi beşiyi olan Qarabağa köçüb. Burada Azərbaycanın görkəmli müğənniləri Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov və məşhur tarzən Qurban Pirimovla bərabər bir müddət müğənnilik edib. Amma bu, uzun sürməyib və o, aşıq olmaq qərarına gəlib. Üç il məşhur ustad Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın şəyirdi olub və ondan aşıqlıq sənətinin incəliklərini öyrənib. Tezliklə bir aşıq kimi tanınıb, şöhrət qazanıb. Azərbaycanda və keçmiş SSRİ-də keçirilən mədəni tədbirlərdə iştirak edib. O, 1938-ci ildə Bakıda keçirilən Aşıqların ikinci Qurultayında və 1940-cı ilin may ayında Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında o dövrün məşhur aşıqları Əsəd Rzayev və Teymur Hüseynovla bərabər iştirak edir.

Aşıq Nabat kalssik aşıq poeziyasını və dastanları mükəmməl bilib. Özü də şeir yazıb. Aşıq Nabat 1973-cü ildə vəfat edib.

Sona Qara qızı Əliyeva 1918-ci ildə Gürcüstan Respublikasının azərbaycanlıların kompakt yaşadığı Başkeçid bölgəsinin Hamamlı kəndində anadan olub.

Gənc yaşlarından aşıq sənətinə bağlanıb və ömrünün sonunadək aşıq kimi el məclislərində iştirak edib. 1984-cü ildə qadın aşıqları öz ətrafında birləşdirən "Aşıq Pəri məclisi"nin yaradılmasında böyük xidmətləri olub.

Aşıq Sona 1988-ci ildə dünyasını dəyişib.

Əskinaz Vəli qızı Abbasova 1933-cü ildə Tovuz rayonunda anadan olub. Aşıq sənətini böyük ustad aşıq Mirzə Bayramovdan öyrənib, zil və zənguləli səsi ilə seçilən qadın aşıqlarımızdan olub. Deyilənlərə görə hətta kişi aşıqların belə oxumağa çətinlik çəkdiyi havaları da özünəməxsus məharətlə ifa edib.

Aşıq Əskinaz 1979-cu ildə vəfat edib.

Aşıq Sayat 1936-cı ildə Tovuzda anadan olub. Həyat yoldaşı İbrahim balabançı idi və onunla birlikdə el şənliklərində çıxış edirdi.

Aşıq Sayat 1961-ci ildə vəfat edib.

Dilarə Azaflı (Zeynalova Dilarə Mikayıl qızı) 1947-ci ildə Tovuz rayonunun Azaflı kəndində dünyaya gəlib. Onun atası Mikayıl Azaflı məşhur ustad aşıq olub. Dilarə Azaflı ali təhsli alıb - Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Orta məktəbdə müəllim kimi fəaliyyət göstərib. Ətrafında qadın aşıqları birləşdirən "Aşıq Pəri Məclisi"nin ən fəal üzvlərindən biri olub, ictimai həyatda fəallığı ilə seçilib. Bir sıra mükafatlara layiq layiq görülüb. O, həm də şeir yazıb, kitabı nəşr olunub.

Dilarə Azaflı 2005-ci il avqustun 25-də Bakı şəhərində vəfat edib.

***

Bu gün Azərbaycanda aşıq sənətinin inkişafı üçün geniş imkanlar var. Bu imkandan qadınlar da istifadə edə bilirlər. İndi kişi aşıqlarla yanaşı, qadın aşıqlar da həm ali təhsil alır, həm də aşıq sənəti ilə məşğul olurlar. Onlar el şənliklərində, dövlət tədbirlərində, musiqi festivallarında iştirak edirlər. Sənətə gələn gənc qızlar həm də aşıq sənəti üzrə müvafiq kollec və universitetdə oxuyur, hətta təhsillərini magistr və doktorantura səviyyəsində davam etdirirlər. Qadın aşıqlar eyni zamanda ölkənin ictimai həyatında da fəal iştirak edirlər. Onlardan bir neçəsi haq-



qında qısa da olsa məlumat vermək istəyirik.

Ulduz Sönməz (Ulduz Əsgər qızı Quliyeva) 1945-ci ildə Aəzrbaycanın Gədəbəy rayonunda anadan olub. Müasir dövrdə Azərbaycan aşıq sənətinin inkişafında xidmətləri olan, özünəməxsus dəst-xətti ilə seçilən qadın aşıqlardan biridir.

Azərbaycan Aşıqlar Birliyi İdarə heyətinin üzvüdür. O, eyni zamanda "Aşıq Pəri" Məclisinin ilk üzvlərindən biridir.

Aşıq musiqisinin təbliği sahəsində yorulmaz fəaliyyəti ilə seçilən U.Quliyeva 2000-ci ildə "Ulduz" birliyi yaradıb, "Qopuz" adlı jurnal təsis edib. Yaradıcı aşıq olan Ulduz Quliyeva eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin də üzvüdür, kitabları nəşr olunub.

Hələ gənclik illərindən (1964-1971-ci illər) Sumqayıt şəhərində Mədəniyyət evində xalq çalğı alətləri ansamblının bədii rəhbəri kimi fəaliyyət göstərib. M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi yaddaqalan çıxışları olub.

Ulduz Quliyeva sadəcə ifaçı aşıq deyil, həm də bu sənətin tədrisi ilə məşğul olan sənətkardır. 1984-cü ildən Sumqayıt şəhərindəki musiqi kollecində aşıq sənətini tədris edib. Bu sahədəki uğurlarına görə 2005-ci ildə Azərbaycan Təhsil nazirliyinin "Fəxri fərman"ına layiq görülüb.

Özünəməxsus sənətkarlığı ilə seçilən Ulduz Quliyeva respublikamızda keçirilən dövlət tədbirlərində həmişə uğurla çıxış edib, dəfələrlə Amerika, Almaniya, İsrail, Türkiyə, İraq və başqa bir çox ölkələrdə Azərbaycan mədəniyyətini ləyaqətlə təmsil edib.

Ulduz Quliyevanın xidmətləri dövlət tərəfindən də layiqincə qiymətləndirilib, 2008-ci ildə ona ölkə Prezidentinin sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib. 2016-cı ildən həm də Prezident təqaüdçüsüdür.

**Solmaz Qorçu qızı Kosayeva 1955-ci ildə Qazax şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra kollecdə oxuyub. Gənc yaşlarından sənətə gələn Solmaz Kosayeva 1985-ci ildə Moskva şəhərində keçirilən gənclərin XII Ümumdünya festivalında I dərəcəli diploma layiq görülüb. 30 ildən çoxdur ki, qadın aşıqları öz ətrafında birləşdirən "Aşıq Pəri məclisi"nin ilk üzvlərindəndir. Sənətdə özünəməxsus yolu var. Aşıq mahnıları ilə yanaşı bəstəkar mahnılarını da ifa edir.**

**(ardı gələn sayımızda)**

**Musa NƏBİOĞLU**
**Əməkdar Mədəniyyət İşçisi**